

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 197 (23.359)

*19 oktyabr 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Latviya Respublikasının sabiq Prezidenti Raymonds Veyonislə görüşüb.

Prezident İlham Əliyev deyib ki, biz siyasi, eləcə də iqtisadi əlaqələr baxımından çox iş görmüşük. Mən, həmçinin şadam ki, biz razılaşdırdığımız bütün işləri həyata keçirmişik. Xatırlayıram ki, ölkənizə son səfərim zamanı biz Azərbaycan Ticarət Evinin açılması ilə bağlı sizinlə razılığa gəldik. Bu, sizin regionda ilk Azərbaycan Ticarət Evidir. Hazırda bizim Polşada, Çində, Rusiyada, Ukraynada, Birləşmiş Ərəb Əmirliklərində, bəzi başqa ölkələrdə ticarət evlərimiz var. Mən şadam ki, sizin regionunuzda bu, Latviyadadır, çünki bizim, həqiqətən də, sıx əlaqələrimiz var. Bildiyiniz kimi, Latviyanın sabiq Prezidenti xanım Vike Freyberqa da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri kimi çox fəaldır. Beləliklə, əlaqələrimizin yaxşı tarixçəsi var. Əminəm ki, qarşıdakı illərdə ölkələrimiz sıx əməkdaşlığı davam etdirəcək.

Latviya Respublikasının sabiq Prezidenti Raymonds Veyonis bildirib ki, əlaqələr, həqiqətən də, çox yaxşıdır. Biz müxtəlif səviyyələrdə hər zaman inkişaf etdirilməsi mümkün olan əla tərəfdaşlığa ümid bəsləyirik və düşünürəm ki, hər iki tərəf bu tərəfdaşlıqdan zövq alacaq. Bizim ölkəmiz üçün Azərbaycan bu regionda çox yaxın strateji tərəfdaş olub, tərəfdaşdır və tərəfdaş olacaq.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevi qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində təltiflərin təqdimatı olub

Oktyabrın 18-də – Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının təqdimat mərasimi keçirilmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının medal və fəxri adlarına layiq görülmələri münasibətilə təbrik etmişdir.

Ali Məclisin Sədri demişdir: 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Müstəqillik haqqında Konstitusiya Aktını qəbul edərək dövlət müstəqilliyini və suverenliyini bütün dünyaya bəyan etdi. Həmin gün siyasi tariximizə Müstəqillik Günü kimi daxil oldu. Hər bir xalqın ən böyük nailiyyəti onun dövlət müstəqilliyidir. Lakin tarix dəfələrlə sübut edib ki, müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Müstəqillik yolu qədər çətin yol yoxdur. Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması ondan da çətindir".***

Qeyd olunmuşdur ki, ötən əsrin 70-ci illərindən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı proqramlar, müasir iqtisadi potensialın formalaşdırılması, sosial-mədəni həyatın canlandırılması və milli dəyərlərin dirçəldilməsi gələcək müstəqilliyimizin təmin olunması üçün əsaslı zəmin hazırlamışdı. Ulu öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərməsi, muxtar respublikada müstəqil dövlətçiliyimizin əsaslarını yaratması isə yenicə qazandığı müstəqilliyi itirmək və parçalanmaq təhlükəsi yaşayan Azərbaycanın nicatına çevrildi. Ulu öndərimizə tanınmış elm və mədəniyyət xadimləri, ziyalılar tərəfindən ünvanlanmış 1992-ci il 16 oktyabr tarixli "Azərbaycan sizi gözləyir" müraciəti də xalqımızın siyasi iradəsinin ifadəsi idi. 1993-cü il iyunun 15-də xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli liderimiz Azərbaycanı dağılmaq və məhv olmaq təhlükəsindən xilas etdi, ictimai-siyasi sabitlik bərqərar olundu, müstəqilliyimiz və dövlətçiliyimiz möhkəmləndirildi.

Ali Məclisin Sədri demişdir: Ulu öndər Heydər Əliyevin yolu Azərbaycanın müstəqillik və inkişaf yoludur. Bu gün dahi şəxsiyyətin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidentinin rəhbərliyi altında dövlət müstəqilliyimiz daha da möhkəmlənmiş, Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası böyük inkişaf yolu keçmiş, ərzaq, enerji, müdafiə və informasiya təhlükəsizliyi təmin edilmişdir. Muxtar respublikadakı inkişaf və bu inkişafa insanlarımızın verdiyi töhfə bir-birini tamamlayır. Bu gün dövlət mükafatları təqdim olunanlar da öz sahələrində fərqlənən, müstəqilliyimizin möhkəmlənməsində və ölkəmizin inkişafında özünəməxsus payı olan insanlardır.

Ali Məclisin Sədri dövlət müstəqilliyimizin və torpaqlarımızın qorunmasında həyatını qurban verən şəhidlərimizin xatirəsini yad etmiş, şəhid ailələrini, veteranları, Naxçıvan Muxtar Respublikasındakı ordu, birləşmə və hissələrin şəxsi heyətlərini, təltif olunanları və onların timsalında bütün muxtar respublika əhalisini Müstəqillik Günü münasibətilə təbrik etmiş, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda hər kəsə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının medallarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarını təqdim etmişdir.

Təltif olunanlardan Ruxsarə Hüseynova, Səhnə Bağırova, Şükufə Əhmədova, Fatma Mustafayeva, Yusif Fərzəliyev, Vüsal Ələkbərli, Nadir Cəfərov, Taleh İbrahimov, Fərhad Bədəlov, Bilqeyiz Əkbərova, Səyyad Həsənov, Malik İsmayılov, Aynur Abbasova, Elsevər Əliyev, Şəmsiyyə Əsgərova və Atikə Quliyeva əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq etmiş, Müstəqillik Günü münasibətilə təbrikləri çatdırmışlar. Qeyd olunmuşdur ki, müstəqil dövlətimizin inkişafı, bütün sahələrə göstərilən qayğı səmərəli fəaliyyət üçün geniş imkanlar açır. Qarşımızda duran əsas vəzifə bundan sonra da ölkə Prezidenti tərəfindən davam etdirilən Heydər Əliyev siyasi xəttinə sadiq qalaraq müstəqilliyimizin və dövlətçiliyimizin inkişafına töhfə verməkdir.

"Tərəqqi" medalı ilə təltif olunan Murad Heydərov demişdir: "Müəllim əməyinə verilən qiymət, müasir məktəb binalarının tikilməsi bütün təhsil işçilərini ürəkdən sevindirir. Çalışdığım Şərur şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey də müasir tədris avadanlıqları ilə təchiz olunmuşdur. Bu da bizə dərsləri daha yaxşı tədris etməyə imkan verir. Eyni zamanda göstərilən etimad məsuliyyətimizi artırır. Söz veririk ki, bundan sonra da səylə çalışacaq, Vətənimizə layiqli vətəndaşlar yetişdirəcəyik".

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycanın müstəqilliyi uğrunda sağlamlığını itirmiş şəxslərə avtomobillər təqdim olunub

Oktyabrın 18-də – Dövlət Müstəqilliyi Günündə Naxçıvan şəhərində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda, eləcə də hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlığı məhdudlaşmış 23 nəfərə və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə "Naz Lifan 330" markalı minik avtomobili təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada ərazi bütövlüyümüzün müdafiəsi zamanı sağlamlığı məhdudlaşmış şəxslərin və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, minik avtomobillərinin verilməsi, onların tibbi və sosial bərpası diqqət mərkəzində saxlanılır. 2019-cu ilin ötən dövründə müvafiq kateqoriyalı şəxslərə aylıq müavinət və təqaüdlər vaxtında ödənilmiş, 639 nəfərin bərpa mərkəzlərində müalicələri təşkil edilmiş, 390 şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilmiş, 324 nəfərə texniki reabilitasiya vasitələri

*Ardı 2-ci səhifədə*





təqdim edilmişdir. Müvafiq dövrdə 11 nəfərə minik avtomobili, 17 ailəyə mənzillər təqdim olunmuş, sağlamlıq imkanları məhdud uşaqların təhsili və sosial reabilitasiyası üzrə tədbirlər davam etdirilmişdir. Dövlət Müstəqilliyi Günündə müvafiq kateqoriyadan olan şəxslərə minik avtomobillərinin təqdim edilməsi də göstərilən qayğının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Müstəqillik haqqında Konstitusiya Aktının qəbul olunduğunu bildirmiş, bu münasibətlə tədbir iştirakçılarını təbrik edərək demişdir: Ölkəmizdə dövlət müstəqilliyi elan olunduqdan sonra yaranan ağır vəziyyət müstəqilliyi itirmək təhlükəsi yaratmışdı. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıdışı Azərbaycanın dövlət müstəqilliyini qorudu və əbədi etdi. Ölkə Prezidenti tərəfindən ulu öndərin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan inkişaf edir, müstəqilliyimiz daha da möhkəmlənir.



“Bu gün ölkəmizin inkişafında, müstəqilliyin qorunmasında və dövlətçiliyimizin möhkəmləndirilməsində əməyi olanlara hərtərəfli qayğı göstərilir. Vətən qarşısında borclarını layiqincə yerinə yetirən, vətənpərvərlik nümunəsi göstərən insanlara minik avtomobillərinin təqdim olunması bunu bir daha təsdiq edir. Dövlətimiz tərəfindən göstərilən bu diqqət hər kəs üçün nümunədir”, – deyən Ali Məclisin Sədri xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə avtomobillə təmin olunanlara təşəkkür etmişdir.

Sonra Ali Məclisin Sədri avtomobillərin açarlarını təqdim etmişdir.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda sağlamlığı məhdudlaşmış Vaqif Ağalarov müharibə veteranları adından minnətdarlıq edərək demişdir: “Muxtar respublikada insanların həyat səviyyəsi günbəgün yaxşılaşır. Eyni zamanda Vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı sağlamlığını itirənlərə, şəhid ailələrinə dövlətimiz tərəfindən yüksək diqqət və qayğı göstərilir. Müharibə veteranları, şəhid ailələri mənzillə təmin olunur, onlara minik avtomobilləri verilir, müalicələrinə köməklik göstərilir. Muxtar respublikada yaradılan şəraitin nəticəsidir ki, çox rahat yaşayırıq. Müstəqillik Günündə minik avtomobili ilə təmin olunmağımız bizi qürurlandırır”.

Avtomobillərlə təmin olunan Novruz Hüseynov, Firdovsi Ağayev və digərləri də göstərilən diqqətə görə minnətdarlıq etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycanın dövlət müstəqilliyinin 28-ci ildönümü AMEA Naxçıvan Bölməsində qeyd olunub

“Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir” mövzusunda keçirilən konfransı bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi, milli dövlətçilik ənənələrinin qorunması, siyasi, iqtisadi islahatların həyata keçirilməsi istiqamətində gördüyü məqsədyönlü tədbirlərdən danışıb.

Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra keçdiyi tarixi inkişaf yoluna nəzər salan alim qeyd edib ki, ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ölkəmizi xaos və anarxiyadan, hərc-mərclikdən qurtarıb. Azərbaycanın qüdrətlənməsinə və xalqımızın maddi rifah halının yüksəldilməsinə xidmət edən siyasi qərarlar qəbul edib.



Bildirilib ki, ulu öndər Heydər Əliyevin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Bu siyasi xətt Azərbaycan dövlətçiliyinin inkişafına, ölkənin milli maraqlarının müdafiəsinə və iqtisadiyyatın inkişaf etdirilməsinə misilsiz töhfələr verir. Ölkəmizin hərtərəfli və sürətlə inkişafı, əsaslı dəyişikliklər, xarici siyasətimizdəki uğurlar, əhalinin rahatlığı naminə həyata keçirilən qlobal layihələr bu gün Azərbaycanın qüdrətli dövlət olduğunu təsdiq edir.

İsmayıl Hacıyev vurğulayıb ki, dahi şəxsiyyətin işi və əməlləri Naxçıvan Muxtar Respublikasında da bütün sahələrdə uğurla davam etdirilir. Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının bu gün bütün sahələrdəki yüksək inkişafı dahi öndər Heydər Əliyevin parlaq ideyalarının təzahürüdür.

Sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim dövr arxeologiyası şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin “Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi və memarıdır” mövzusunda məruzəsi dinlənilib.

Məruzə ətrafında Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Hüseyn Həşimli çıxış edərək bu istiqamətdə həyata keçirilən tədbirlərdən, ulu öndərimizin və Prezident İlham Əliyevin müstəqilliyimizin qorunmasında və inkişafındakı misilsiz xidmətlərindən danışıblar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Operativ vergi tədbirləri görülür

2019-cu ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət sahələrində yoxlama və monitorinqlər aparılmış, 2 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür. Keçirilən nəzarət tədbirləri zamanı 1 şəxsin “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz” almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu aşkarlanmış və həmin şəxs barəsində qanunamüvafiq tədbirlər görülmüşdür. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 1 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılmışdır.

Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə aparılmış araşdırmalar zamanı 241 yeni əmək müqaviləsinin bağlanmasına nail olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

## Keyfiyyətin yüksəldilməsi diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi 2019-cu ilin sentyabr ayında məhsul nümunələrinin 251 halda keyfiyyət göstəricilərinin yoxlanılmasını təmin etmişdir.***

Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 116 qida istehsalı müəssisəsinə, 96 ictimai iaşə və xidmət sahəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Məhsulların sertifikatlaşdırılmasına dair elektron xidmət vasitəsilə daxil olmuş 25 müraciət operativ icra edilmişdir. Meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması işi çərçivəsində məhsulların 7 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılmışdır. 3 anbardan və 3 satış obyektindən götürülmüş məhsulların 6 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalında istifadəsinə icazə verilən təbii və qeyri-təbii vasitələrin tətbiqinə, xaricdən idxal edilən üzvi və qeyri-üzvi gübrələrin keyfiyyət göstəricilərinə, toxumların və tingçilik məhsullarının müəyyən olunmuş tələblərə cavab verməsinə nəzarətin gücləndirilməsi tədbirinin icrası istiqamətində arpa və buğda toxumlarından nümunələr seçilərək analizləri aparılmış və keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması istiqamətində 26 bufet və yeməkxanada monitorinqlər, yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmış və aşkar olunmuş nöqsanlar aradan qaldırılmışdır.

Məktəbli və tələbə geyim formaları istehsal edən 4 təsərrüfat subyektində istifadə olunan parçaların göstəriciləri yoxlanılmış və nəticələrin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Məktəbli ləvazimatlarının satıldığı yarmarka və obyektlərə baxış keçirilmiş, nöqsan aşkar edilməmişdir.

Bal məhsullarının 152 halda laboratoriya analizləri aparılaraq reduksiyaedici şəkərin həddinə dair məlumatlar təsərrüfatlara çatdırılmışdır. “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası çərçivəsində “Naxçıvan qovurması”nın istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə bağlı Culfa rayonunun Ərəfsə, Ordubad rayonunun Sabirkənd yaşayış məntəqələrində ailə təsərrüfatları üçün seminar-müşavirələr keçirilmiş, “Naxçıvan qovurması” əmtəə nişanlı etiketlər, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulmasına aid maarifləndirici bukletlər təqdim olunmuşdur.

Ötən ay ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarət məqsədilə məhsullardan 152 halda nümunələr götürülərək laboratoriyaya təqdim edilmiş, sınaqların nəticələrinin standartların tələblərinə uyğun olduğu müəyyən olunmuşdur.



Həmçinin 80 bərbərxana və 6 gözəllik salonunda maarifləndirmə xarakterli monitorinqlər aparılmış, aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır. Metroloji norma və qaydalara uyğun olaraq 2158 sayğac yoxlanılmışdır.

Fövqəladə Hallar Nazirliyinin və Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə birgə muxtar respublikada fəaliyyət göstərən 44 təsərrüfat subyektində müşahidə xarakterli monitorinqlər aparılmış, ümumilikdə, idxal olunan 220 məişət qaz cihazına baxış keçirilmiş, təhlükəsizliyi təmin olunmayan 88 məişət qaz cihazının idxal və satışına icazə verilməmişdir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi***

*20 oktyabr Energetiklər Günüdür*

# Muxtar respublikada istehlakçılar fasiləsiz elektrik enerjisi ilə təmin olunur



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli Sərəncamına əsasən hər il oktyabrın 20-si ölkəmizdə "Energetiklər Günü" kimi qeyd edilir.***

Azərbaycanda elektroenergetikanın inkişafına ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən başlanmış, enerji sisteminin sürətli inkişafını təmin etmək məqsədilə mühüm tədbirlər görülmüşdür. Müstəqillik illərində də ölkəmizdə ulu öndərin rəhbərliyi ilə enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülmüşdür.

Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda enerji sektorunun inkişafı yeni mərhələyə qədəm qoymuşdur. Bu sahədə həyata keçirilən tədbirlər blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında da enerji təhlükəsizliyini təmin etmişdir. Xüsusilə son illər istifadəyə verilən yeni su elektrik stansiyaları tələbatın dayanıqlı şəkildə ödənilməsində və ixrac imkanlarının yaranmasında mühüm





əhəmiyyətə malikdir. Belə ki, ölkə Prezidentinin iştirakı ilə Heydər Əliyev Su Anbarı üzərində gücü 4,5 meqavat olan yeni su elektrik stansiyası, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Azərbaycanda ilk derivasiyatipli 22 meqavat güclü Biləv Su Elektrik Stansiyası, 20,5 meqavat güclü "Arpaçay-1" və 1,4 meqavat güclü "Arpaçay-2" Su Elektrik stansiyaları, 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi, 2017-ci ildə həmin ərazidə 2 meqavat, 2019-cu ildə isə Kəngərli rayonunun Qabıllı kəndində 2 meqavat gücündə yeni Günəş Elektrik stansiyalarının qurulması Naxçıvanın etibarlı enerji təminatına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlər Azərbaycanda elektroenergetika sahəsində qəbul olunan dövlət proqramlarının icrası və yeni elektrik stansiyalarının tikilməsi sahəsində görülən işlərin tərkib hissəsidir. Artıq muxtar respublikada enerji təhlükəsizliyi təmin edilib. Ucuz enerji istehsal edən sahələrə üstünlük verməklə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin gəlirlərini artırmaq və bu sahəni daha da müasirləşdirmək qarşıda duran əsas vəzifədir".***

Naxçıvan Muxtar Respublikasının əlverişli iqlim şəraiti alternativ və bərpa olunan enerji mənbələrindən istifadə üçün geniş imkanlar açır. Hazırkı dövrdə ümumi enerji istehsalının 70 faizə qədəri alternativ və bərpa olunan enerji mənbələri hesabına ödənilir. Bu sahədə görülən işlərin davamı olaraq bu il avqustun 9-da Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti ilə İsveçrənin "Pure Energy Development" SARL Şirkəti arasında Kəngərli rayonunun Qabıllı kəndi ərazisində 3 meqavatlıq yeni Günəş Elektrik Stansiyasının qurulması barədə müqavilə imzalanmışdır. Hazırda Ordubad Su Elektrik Stansiyasının tikintisi aparılır. Gələcəkdə Naxçıvanın enerji təhlükəsizliyinə töhfə verəcək Tivi və Qazançı Su Elektrik stansiyalarının, Culfa və Ordubad rayonları ərazisində yeni Külək Elektrik Stansiyasının tikintisi nəzərdə tutulur. Bu da muxtar respublikanın etibarlı enerji ilə təminatına öz töhfəsini verəcəkdir.

Son illər Şərur, Ordubad, Kəngərli, Şahbuz, Babək və Naxçıvan şəhər elektrik şəbəkələri üçün yeni inzibati binalar tikilərək istifadəyə verilmiş, elektrik yarımstansiyaları yenidən qurulmuşdur. Bundan əlavə, yaşayış məntəqələrində yeni elektrik xətlərinin çəkilməsi, transformatorların yenilənməsi fasiləsiz elektrik təminatında mühüm rol oynamışdır.

Muxtar respublikada bütün istehlakçıların istifadə etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün rəqəmsal elektron sayğaclar qoyulmuş, istifadə olunmuş enerji haqqının sayğacların göstərişləri əsasında ödənilməsi təmin edilmişdir. Naxçıvan və Şərur şəhərlərində, Babək qəsəbəsində mənzillərə ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri davam etdirilir. Həmçinin əməkdaşlar tərəfindən elektrik enerjisindən səmərəli istifadə edilməsi, israfçılığın, elektrik enerjisindən qanunsuz və sayğacdankənar istifadə edilməsinin qarşısının alınması məqsədilə mütəmadi reydlər keçirilir.

Elektroenergetika sahəsində ixtisaslı kadr hazırlığına da xüsusi diqqət yetirilir. Bu sahədə reallaşdırılan tədbirlərin nəticəsidir ki, muxtar respublikada elektrik stansiyalarının tikintisi və yenidən qurulması, elektrik təchizatı avadanlıqlarının quraşdırılması, bütövlükdə, yerli mütəxəssislər tərəfindən həyata keçirilir.

Muxtar respublikanın energetika işçiləri bundan sonra da əhalinin keyfiyyətli elektrik enerjisi ilə təminatı üçün səylərini əsirgəməyəcəklər.

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Energetika Xidmətinin mətbuat xidməti**

*Oktyabrın 18-də Culfa Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələr barədə tədbir keçirilib. Tədbiri rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev açaraq sığorta sahəsində görülmüş işlərdən danışıb.*

# Sığorta fəaliyyətinin təşkili müzakirə edilib



Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirib ki, sığorta fəaliyyəti muxtar respublikamızın müasir iqtisadi və sosial inkişafının tərkib hissəsidir. O vurğulayıb ki, muxtar respublikada sığorta işinin daha da təkmilləşdirilməsi, könüllü sığortanın kütləvi tətbiq olunması və səyyar xidmətin əhatə dairəsinin genişləndirilməsi, bu sahədə insanların maarifləndirilməsi, sığorta bazarında aqrar sektorun xüsusi çəkisinin artırılması istiqamətində bir sıra tədbirlər görülüb. Nəticədə, sığorta işinin həcmi əhəmiyyətli dərəcədə artıb, baş vermiş sığorta hadisələri zamanı insanlara dəymiş maddi zərərlərin bərpa olunması təmin edilib.

Sığorta fəaliyyətinin daha da genişləndirilməsinin vacib olduğunu qeyd edən baş direktor bildirib ki, cari ilin 9 ayında Culfa rayonu üzrə 5301 sığorta müqaviləsi bağlanılıb, onlardan 1229-u avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, 2740-ı daşınmaz əmlakın icbari sığortaları olub. Bu dövrdə könüllü sığortalar üzrə isə 1328 müqavilə bağlanılıb.

Baş direktor vurğulayıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığortanın şamil olunduğu bütün obyektlərin sığortası təmin edilməlidir. Son dövrlərdə Culfa rayonunda sığorta sahəsində görülmüş işlərlə bərabər müəyyən çatışmazlıqlar da vardır. Buna görə də rayonda sığorta fəaliyyətinin daha da genişləndirilməsi və bu sahədə maarifləndirmə işlərinə diqqətin artırılması vacib vəzifə kimi qarşıda durur.

Tədbirdə kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunulub. Bu barədə də danışan baş direktor bildirib ki, kənd təsərrüfatında aparılan sığorta işi də insanların rifahının yüksəldilməsinə xidmət edir. Buna görə də bölgədə əkin sahələrinin, meyvə bağlarının, heyvanların sığortalanması məqsədilə fermer, torpaq mülkiyyətçiləri və ailə təsərrüfatları sahibləri arasında maarifləndirici işlər genişləndirilməlidir.

Tədbirdə Culfa Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi qrupunun baş dövlət avtomobil müfəttişi, polis baş leytenantı Taleh Alışarov və Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəis müavini, daxili xidmət mayoru Murad Qafarov görülmüş işlərin vəziyyəti barədə məlumat veriblər.

**Əli CABBAROV**

*Müstəqillik qazandığımız illərdən muxtar respublikamızda mütərəqqi təsərrüfat formalarının yaradılması üçün məqsədyönlü işlər görülüb və görülməkdədir. Həyata keçirilən inkişaf strategiyasının əsas prioritetlərindən biri də yaşayış məntəqələrində kiçik və orta sahibkarlığın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin olunmasıdır. Məhz ucqar ərazilərdə, sərhəd bölgələrimizdə də bu yolla daha çox iş imkanlarının yaradılması dövlətimiz tərəfindən həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsi kimi diqqəti cəlb edir. Daxili bazarda yerli istehsalın xüsusi çəkisinin gündən-günə artması da bununla bağlıdır. Bu uğurların qazanılmasında yeni və mütərəqqi təsərrüfat forması olan ailə təsərrüfatlarının da böyük əməyi var. Naxçıvanda bu təsərrüfat forması ilə məşğul olan insanlara hər cür köməklik göstərilir. Görülən işlərin nəticəsidir ki, belə təsərrüfatların sayı ildən-ilə artır.*

# Sədərək rayonunda "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib





Ötən il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən növbəti "Ailə təsərrüfatı məhsulları" festivalında Ali Məclisin Sədri muxtar respublikanın bütün rayonlarında da belə festivalların keçirilməsi və nümunəvi ailə təsərrüfatlarının iş təcrübəsinin yayılması barədə də tapşırıqlar verib. Həmin tapşırıqların yerinə yetirilməsinin ifadəsidir ki, dünən Sədərək rayonunda "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib. Festivalda rayonun kəndlərindən 20-dən artıq ailə təsərrüfatı tərəfindən 108 adda, 5014-dən çox qablaşdırılmış kənd təsərrüfatı məhsulları – mövsümi meyvələr, müxtəlif növ mürəbbə və şirniyyatlar, meyvə araqları, pendir, cəviz, eləcə də turşular, təbii meyvə şirələri, dərman bitkiləri, milli mətbəximizə aid müxtəlif çörək növləri və digər məhsullar iştirakçılara təqdim edilib. Sədərək Rayon Uşaq Musiqi Məktəbinin "Yallı" qrupunun ifaları buraya gələnlərdə xoş ovqat yaradıb.

Biz də həmin festivalda sədərəkli ailə təsərrüfatçılarının bir neçəsi ilə həmsöhbət olduq.

İlham Abdullayev arıçılıqla məşğuldur və bir neçə ildir ki, ailə təsərrüfatı sahibidir. O deyir ki, rayonda iş adamlarına, fərdi təsərrüfatla, əkin-biçinlə məşğul olanlara geniş imkanlar açılıb. Hara baxırsan, taxıl zəmiləridir, kartof, bostan-tərəvəz tarlalarıdır, üzüm, meyvə bağlarıdır, biçənək, yonca sahələridir. Belə təsərrüfatlar özünüməşğulluq vasitəsi sayılmaqla bərabər, həm də geniş biznes üçün ilk təcrübə deməkdir. Xüsusən də ucqar yaşayış məntəqələrinin sakinləri üçün. Bu günün ailə təsərrüfatçısı sabahın fiziki şəxsi, sonra isə daha böyük sahibkarıdır.

Dövlətimizin yaratdığı şəraitdən istifadə edib ailə təsərrüfatı yaradanlardan biri də rayonun Sədərək kənd sakini Nazirə Əliyevadır. O, öz pay və həyətyanı torpaqlarında əkinçiliklə məşğuldur. Zəhmətkeş qadın bir neçə ildir ki, alın tərini torpağa qatır, onu əzizləyir, bərəkətini Tanrıdan diləyir. Onun söhbəti:

– Bu gün muxtar respublikamızda, demək olar ki, hər bir ailə pay torpaqlarına sahibdir. Torpaq mülkiyyətçiləri, fermerlər sərbəst təsərrüfatçılıq fəaliyyəti ilə məşğul olmaq, ailələrinin güzəranını yaxşılaşdırmaq imkanları qazanıblar. Kənd adamları torpaq vergisi istisna olmaqla, digər bütün vergilərdən azad ediliblər. Bütün bunlar, son nəticədə, məhsul istehsalının yüksək sürətlə artması ilə nəticələnib, əhalinin rifah halı xeyli yaxşılaşıb. Bu cür tədbirlərin keçirilməsi isə biz ailə təsərrüfatçılarına böyük qayğıdır.

Digər ailə təsərrüfatı başçısı Mehparə Hüseynova bildirdi ki, əvvəllər çətinliklərimiz çox olub. Lakin öz qohum-əqrəbamın, yaxın qonşularımızın arabir köməyini gördükdə qərara aldım ki, elə işimizi onlarla birlikdə quraq. Fikrimlə razılaşdılar. Onlar arasında müəllim də, aqronom da, sürücü də var. Atalarımız çox doğru deyib: "El bir olsa, dağ oynayar yerindən". Biz bu birliyi ailə təsərrüfatını yaradandan sonra bir daha gördük və bu gün də görürük. İstər əkin vaxtı, istərsə də məhsul yığımı və qablaşdırılmasında ailə üzvlərimizin əməyindən istifadə edirəm. Birlik olmadan bu qədər işin öhdəsindən gəlmək mümkün deyil. Yaxşı çalışmaq yaxşı qazanmaq, ölkəmizin iqtisadiyyatına töhfə vermək və yaxşı yaşamaq deməkdir. Dövlətimizi sağ olsun ki, bizə belə şərait yaradıb. Yaxın günlərdə Naxçıvan şəhərində keçiriləcək "Ailə təsərrüfatı məhsulları" festivalına müxtəlif çeşidlərdə məhsul çıxaracağıq.

Həmin təsərrüfatın üzvü Səfər Əliyev deyir ki, ailə təsərrüfatlarına dövlət tərəfindən lazımi köməkliklər göstərilir. Yanacaq, gübrə, güzəştli kreditlərin verilməsi biz təsərrüfatçılar üçün böyük dəstəkdir. Kənd adamı illik ruzisini malından, heyvanından, bağından, bağçasından, əkindən, biçindən tədarük edir. Əvvəllər əkib ərsəyə gətirdiyimiz məhsulun öz ehtiyacımızdan artıq qalan hissəsini saxlamaq, satmaq imkanımız az idi. Amma indi dövlətimiz elə şərait yaradıb ki, öz ehtiyacımızdan artıq qalanını satır, digər tələbatlarımızı ödəyirik.

Diyarımız yüksəkkeyfiyyətli yerli məhsulları ilə tanınır. Göycəsi, əriyi, çeşid-çeşid pencərləri, pendiri, qovurması, lavaşı, dastanası həmişə adla deyilib. Bu məhsulların həcm və çeşidinin çoxaldılması muxtar respublikanın istehsal və ixrac imkanlarını daha da genişləndirir. Elə keçirilən festivallarda çıxarılan məhsullara alıcı tələbatının artması da bunu bir daha sübut edir.

**Ramiyyə ƏKBƏROVA**

## Fövqəladə hallara hazırlıq işləri davam etdirilir

*Sentyabr ayında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi muxtar respublikada fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmişdir.*

Belə ki, Mülki Müdafiə Alayı və Şərur Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsində xidmətin təşkili və aparılması üzrə nümunəvi məşğələ, Mülki Müdafiə Alayının zabit heyəti ilə birgə qərargah məşqi keçirilmiş, həmçinin Əlahiddə Ümumqoşun Ordunun Mülki Müdafiə Alayı ilə 2019-cu tədris ilinin uzlaşma planına əsasən qarnizon üzrə keçirilən sürücülük məşğələlərində 21 sürücünün, çöl çıxışında isə rabitəçilərin iştirakı təmin edilmişdir. Mülki Müdafiə Alayı və Xüsusi Riskli Xilasetmə Xidmətinin müddətdən artıq həqiqi hərbi xidmət edən 4 hərbi qulluqçusu, hərbi hissənin tabor komandirləri və müavinləri Əlahiddə Ümumqoşun Ordunun Təlim Tədris Mərkəzində keçirilən toplantılara və ixtisasartırma kurslarına cəlb olunmuşlar.

Hesabat dövründə 6 müəssisədə texniki təhlükəsizliyə əməl olunması yoxlanılmış, 3 müəssisə dövlət reyestrində təkrar qeydiyyatdan keçirilmiş, 3 müəssisədə 18 qurğu sınaqdan keçirilərək texniki təhlükəsizlik sertifikatı ilə təmin edilmişdir. Muxtar respublikada radiasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə 8 tibb müəssisəsində yoxlama keçirilmiş, aşkar edilmiş 5 sayda qayda pozuntusunun aradan qaldırılması istiqamətində tövsiyələr verilmiş, 3 tibb müəssisəsi radioloji-gigiyenik pasportla təmin edilmişdir.

Mülki müdafiə işinin təşkili ilə bağlı 10 mərkəzi icra hakimiyyəti orqanında mülki müdafiə sahəsində yoxlama aparılmış, 188 ümumtəhsil məktəbinin sinif rəhbərləri və dərs hissə müdirləri ilə tədris-metodik toplantı, 32 təşkilatda qrup məşğələsi keçirilmişdir. Naxçıvan şəhərində 143 ictimai yaşayış binasının mülki müdafiə təyinatlı zirzəmisinin vəziyyəti yoxlanılmış, 2 inzibati binanın zirzəmisinin mülki müdafiənin mühəndis-texniki normalarına uyğun inşa olunmasına nəzarət edilmişdir.

Muxtar respublikada yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 445 obyektdə yanğıntexniki müayinələr aparılmış, kənd yaşayış məntəqələrində reydlər keçirilərək 714 yaşayış evinə baxış keçirilmiş, 1567 nəfər yanğına qarşı təlimatlandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti**

## Tələbələr yeni hakimlik kurslarına cəlb olunurlar

*Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsində tələbələrlə görüş keçirilib.*



Görüşdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin aparat rəhbəri Tahir Məmmədli ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi istiqamətində görülən işlərin əhəmiyyətini vurğulayıb, budəfəki görüşün önəmindən bəhs edib. Hamiliyə götürülmüş ixtisaslar üzrə təhsil alan tələbələrin pedaqoji kadr kimi formalaşması, təcrübələrinin artırılması məqsədilə onların idman sahəsinə cəlb olunmasına xüsusi diqqət yetirildiyini vurğulayan Tahir Məmmədli tələbələrə ixtisaslarına uyğun idman növləri üzrə seminarların keçirilməsi üçün mütəxəssislərin bu işə cəlbi və gələcək perspektivlər barədə danışıb. Bildirilib ki, bu gün muxtar respublikamızda gənclərin asudə vaxtlarının səmərəli təşkili, intellektual inkişafının təmin edilməsi, onların gələcəyin əsl vətəndaşı kimi yetişdirilməsi üçün hər cür şərait yaradılıb.

Naxçıvan Futbol Federasiyasının sədr müavini Sakit Rzayev muxtar respublika gənclərinin aktiv idman həyatına qoşulması və karyera imkanları baxımından əlverişli şərait olduğunu diqqətə çatdırıb. Federasiya tərəfindən futbol sahəsinin inkişafı ilə bağlı hazırlanan beşillik proqramın həyata keçirilməsində gənc kadrlara üstünlük verildiyini deyən Sakit Rzayev həm hakimlik və məşqçilik sahəsi, həm də qurumun İcraiyyə Komitəsinin tərkibində gənclərin çoxluq təşkil etdiyini vurğulayıb.

Sonra Bakı şəhərindən dəvət olunan mütəxəssis, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası Hakimlər Komitəsinin üzvü, FİFA dərəcəli hakim Elçin Məmmədov tələbələrlə fikirlərini bölüşüb. Azərbaycanda futbol və futzal hakimliyinin inkişaf yolu və perspektivləri haqqında danışan qonaq bu məsuliyyətli peşədə çalışmağın qürurverici olduğunu deyib. Tələbələri yeni hakimlik kurslarına dəvət edən Elçin Məmmədov onların bu sahədə çalışması üçün istər Naxçıvan, istərsə də ölkə və beynəlxalq müstəvidə geniş imkanların olduğunu bildirib. İştirakçılarla maarifləndirici söhbətlər aparan mütəxəssis hakimliyə marağı olanlara kursların plan və proqramı barədə məlumat verib.

Görüşdə suallar cavablandırılıb. Sonra hakimlik kurslarında iştirak etmək istəyən 14 tələbənin qeydiyyatı aparılıb.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Ali təhsil ocağında tədbir keçirilib

Dünən Naxçıvan Müəllimlər İnstitutunda Müstəqillik Gününə həsr edilmiş tədbir keçirilib. Əvvəlcə Təsviri incəsənət müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrin əl işlərindən ibarət sərgiyə baxış olub.

Tədbiri giriş sözü ilə institutun rektoru, dosent Elbrus İsayev açaraq Müstəqillik Gününün xalqımıza verdiyi töhfələrdən danışıb. O, Naxçıvan Müəllimlər İnstitutunda qazanılmış uğurların da müstəqilliyin bəhrələri olduğunu vurğulayıb. Rektor institut



kollektivini təbrik edib.

Sonra Müstəqillik Gününə həsr edilmiş fakültələrarası qızlardan ibarət voleybol komandalarının yarışı keçirilib. Rektor qalib komandaya "Müstəqillik" kubokunu təqdim edib.

Tədbirin bədii hissəsi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tələbələrin ifasında musiqi nömrələri, şeirlərin bədii qiraəti dinlənilib, bədii kompozisiya və videoçarxa baxış olub.

**Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti**

## Naxçıvanda daha bir beynəlxalq turnir başa çatıb





*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən 13-14 yaşlı futbolçular arasında "Naxçıvan kuboku – 95" beynəlxalq turnirinə yekun vurulub.*

Son turun oyunları Naxçıvan Muxtar Respublika Stadionunda keçirilib. Qalibin adı müəyyənləşsə də, digər mükafatçılar son turda məlum olacaqdı. Məhz buna görə də hər iki oyuna maraq olduqca böyük idi. 4 komandanın aktivində olan 3 xal beynəlxalq turnirin gərginliyindən xəbər verirdi.

İlk oyunda meydana "Rekord" və "Qaraqalpaqıstan" komandaları çıxıb. Özbəkistan təmsilçisi ilk iki turda məğlub olsa da, sonradan qazandığı qələbə sayəsində mükafatçılar sırasına düşməyi finala kimi saxlayıb. Azərbaycan klubunun isə gözlənilmədən son turda "Qarabağ"ı məğlub etməsi turnirə olan marağı xeyli artırdı. Odur ki, hər iki komanda oyuna sürətli hücumlarla başladı. Daha üstün oyun sərgiləyən "Qaraqalpaqıstan" komandası rəqibin müdafiə xəttini yarmaqda çətinlik çəkmədi və görüş 6:0 hesablı qələbə ilə başa çatdı.

Günün ikinci qarşılaşmasından öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Meydana çıxan "Araz-Naxçıvan" və "Qarabağ" komandaları ilk hissədə bir neçə imkandan yararlana bilmədilər. Hətta Naxçıvan klubu 28-ci dəqiqədə rəqib qapısına təyin olunan penalti zərbəsindən istifadə edə bilmədi. Bu epizodda qapıçının sərgilədiyi oyun azarkeşlər tərəfindən alqışlarla qarşılandı.

İkinci hissədə isə "Qarabağ" hakimin təyin etdiyi penalti zərbəsini dəqiq yerinə yetirdi. Bu, oyunda vurulan tək qol oldu. Həmin qələbə sayəsində "Qarabağ" aktivindəki xalların sayını 6-ya yüksəltdi və fərdi oyunlara görə turnir cədvəlinin ikinci pilləsində yer aldı.

Turnirin yekun nəticəsinə gəlincə, Özbəkistan Respublikasının "Əndican" komandası 12 xalla ilk dəfə təşkil olunan "Naxçıvan kuboku – 95" beynəlxalq turnirinin qalibi oldu. 6 xal toplayan Azərbaycanın "Qarabağ" komandası gümüş, digər özbək təmsilçisi "Qaraqalpaqıstan" komandası isə bürünc medal qazandı.

Beynəlxalq turnirin ən məhsuldar futbolçusu adına "Qaraqalpaqıstan" komandasının hücumçusu Makset Kalbayev layiq görüldü. Ən yaxşı futbolçu nominasiyasının qalibi isə "Əndican" komandasının təmsilçisi Oktam Abdulmalikov seçildi. Oyunları idarə edən hakimlər təşkilatçılar tərəfindən plaketlərlə təltif olundular. AFFA nümayəndəsinə isə təşəkkürnamə təqdim edildi. Mükafatları Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri, Futbol Federasiyasının sədri Azad Cabbarov və "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru Kamil Yusifov təqdim etdilər. Qalib komandalara medal və kubok, eyni zamanda nominasiyanın qalibi olan futbolçulara "Naxtel"in xüsusi hədiyyələri verildi. Turnirdə iştirak edən bütün futbolçular isə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Futbol Federasiyasının hədiyyələri ilə mükafatlandırıldılar.

Turnirdən sonra qonaqların fikirlərini öyrəndik:



***Timur Turdiyev – "Qaraqalpaqıstan" komandasının direktoru:*** – Turnir ərzində bizə göstərilən qonaqpərvərliyi xüsusilə qeyd etməliyəm. Onu da deyim ki, futbolçularla birgə Naxçıvanı gəzmək imkanımız oldu. Duzdağ Fizioterapiya Mərkəzi və Heydər Əliyev Muzeyinə olan ekskursiyalar, xüsusilə yadda qaldı. Naxçıvan Şərqin ən təmiz şəhəridir. Hər axşam şəhəri gəzəndə yolların təmizləndiyini gördüm. Bura sanki mənə Avropanı xatırladır. Eyni zamanda sakit və qonaqpərvər olması bizdə dərin iz buraxdı.

Turnirdə komandam üçüncü oldu. Halbuki bu yeri də tutmaya bilərdik. Son oyuna kimi mübarizə getdi. Bu da turnirin gərgin mübarizə şəraitində keçdiyini göstərir. İndi vətənimizə bürünc medalla yollanırıq. Bu, bizim üçün böyük bir uğurdur. Gələcək illərdə də Naxçıvanla əməkdaşlığımız davam edəcək və keçiriləcək turnirlərdə muxtar respublikanın da komandasını dəvət edəcəyik. Turnirin təşkilatçıları ilə görüşümüz oldu, növbəti ildə də bu turnirdə iştirak edəcəyimizi bildirdik. Sağ olsunlar ki, onlar bu təklifimizi müsbət qarşıladılar. Hər şey üçün təşəkkürlər, Naxçıvan!



***Makset Kalbayev – Turnirin ən məhsuldar futbolçusu, "Qaraqalpaqıstan":*** – Bu, mənim ölkə xaricində iştirak etdiyim və ilk titul qazandığım turnirdir. Odur ki, Naxçıvanı həmişə ən xoş arzularla xatırlayacağam. Etiraf edim ki, bombardir olacağımı düşünmürdüm. Sadəcə, məni maraqlandıran komandamın qələbəsi və evə "əliboş" dönməməyimiz idi. Buna da nail olduq. Bürünc medal kifayət qədər böyük uğurdur. Son tura kimi mübarizə getdi və komandam burada fəxri kürsüyə çıxmağa müvəffəq oldu. Təşkilatçıların hər birinə təşəkkür edirik.



***Oktam Abdulmalikov – Turnirin "ən yaxşı futbolçusu", "Əndican":*** – Uzun müddətdir ki, bu komandanın heyətində çıxış edirəm. Ölkədaxili və bir sıra beynəlxalq turnirlərdə mübarizə aparmışam. Deyərdim ki, Naxçıvan bunlar arasında ən yaxşısıdır. Səbəbi isə böyük futbol bazasının olmasıdır. Biz bir həftədir, Şərur Olimpiya İdman Kompleksində qalırıq. Burada insanlar bizə çox isti münasibət göstərir, hətta kompleksə gəlib bizimlə şəkil çəkdirir, bizi öz evlərinə qonaq edirlər. Bu, naxçıvanlıların necə qonaqpərvər olduğunu göstərir.



***Elvin Süleymanov – "Qarabağ" Futbol Klubunun uşaq akademiyasının məsul işçisi:*** – Naxçıvanda ilk dəfədir ki, belə bir turnirdə iştirak edirik. Ümumiyyətlə, bura bizim klub üçün düşərli məkandır. Əsas komandamız burada Azərbaycan kubokunun qalibi olub.

Uşaq futboluna Naxçıvanda böyük diqqət göstərilir. Elə turnirin təşkilatçılığı da bunu deməyə imkan verir. Burada bizim üçün hər bir şərait yaradılıb və futbolçularımızın rahatlığı təmin olunub. Bildiyimə görə, bu turnir artıq ənənə halını alacaq və hər il təşkil olunacaq. Komandamız üçün yenidən "Naxçıvan kuboku"nda iştirak etmək qürurverici olardı. "Qarabağ" ilk turnirdə gümüş medal qazandı, lakin gələcək illərdə bunu qızılla əvəzləyəcəyimizə söz veririk. Təşkilatçılara bir daha minnətdarlığımızı bildiririk.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 715